xalqlarının rəqsləri öz orqanikası, ifa texnikası, quruluşu etibarı ilə Şərqin bütün rəqslərindən fərqlənir. Ərəb rəqsləri ilə hind, yapon rəqslərilə Çin, özbək rəqsləri ilə tatar və türkmən rəqsləri arasında uzaq bir bənzəyiş tapmaq mümkünsə də, Qafqaz rəqslərinin yeri şəbəkə-sistemdə xüsusiləşir. Yəni Şərq rəqslərilə Qafqaz rəqslərini eyni bir prizmada görmək istər estetik baxımdan, istər məzmunca özünü doğrultmur.

Sitatda fikir dolaşıqlığı bir də ondan ibarətdir ki, K.Həsənov bir tərəfdən Qafqaz ərazisində yaşayan xalqların rəqslərinin individual olduğunu söyləyir. Digər tərəfdən isə "Ləzgi-həngi" rəqsinin nümunəsində tədqiqatçı ümumqafqaz rəqsinin mümkünlüyü ideyasını ortaya artır. Biz də elə düşünürük ki, Qafqazda məskunlaşmış xalqların rəqslərinin hamısının mayası birdir, fərq yalnız ayrı-ayrı detallardadır. Həqiqətən, çeçenlərin, azərbaycanlıların, ləzgilərin, avarların, gürcülərin rəqsləri heyrətamiz şəkildə bir-birinə oxşayır. Bu, ilk növbədə hansı faktorla izah oluna bilər? Əlbəttə ki, təbii landşaftın xarakterilə. Biz heç vaxt yaddan çıxarmamalıyıq ki, bu rəqslər dağ adamlarının rəqsləridir, çiynində yapıncı, at belində ömür keçirmiş başıpapaqlıların rəqsləridir, çiynində yapıncı qoyun sürülərini güdən çobanların rəqsləridir. Heç şübhəsiz ki, bunları söyləyərkən əkinçilik faktorunu da yaddan çıxarmaq lazım deyil. Rus xalqının rəqsi bu xalqın məskunlaşdığı sonsuz düzənlərə, çöllərə oxşayır. Almanların, hollandların, fransızların rəqsindən həməncə Alp dağlarının təbiətinin xarakteri duyulur. İtalyanların rəqsinin ovqatını isə sanki dəniz diqtə edib. Qafqaz rəqslərində isə Qafqaz dağlarının sərtliyi, alicənablığı, qüruru, hərarəti öz əksini tapır. Bu məqamı xüsusi vurğulamaqla biz göstərmək istəyirik ki, Qafqaz rəqslərini bir-birinə oxşadan əsas amil, şübhəsiz ki, Qafqazın bənzərsiz təbiətidir. Qafqazda hökm sürən özünəməxsus həyat tərzidir. Məhz bu, Qafqaz rəqslərinin ümumi təşəkkül müstəvisini təşkil edir. Rəqs xalqın davranış, əda, jest streotipinin stilizə edilmiş formasıdır. Bu, stilizə edilmiş forma öz-özülüyündə simvoldur, xalqın məişəti haqqında müəyyən məkanı fiqurların köməyilə düzəldilmiş tarixi-kulturoloji şifrədir. Müəyyən bir xalqı öyrənmək, anlamaq üçün sadəcə bu şifrəni açmaq və oxumaq gərəkdir. Yəni rəqs hər hançı bir xalqın, millətin tarixini, mədəniyyətini öyrənməkdən ötrü son dərəcə mühüm amillərdən biridir. Lakin bununla yanaşı biz söyləməliyik ki, nəinki Qafqaz xalqlarının, hətta Azərbaycanın müxtəlif bölgələrinin rəqsləri belə bir-birindən fərqlənir və öz individuallığı ilə seçilir. Bu yöndə professor Kamal Həsənovun həqiqəti təkzibedilməzdir.

Elə ona görə də biz tam əminliklə deyə bilərik ki, Qafqaz rəqsləri ailəsində Azərbaycan rəqslərinin öz xüsusi çəkisi və rolu var. Bayaq vurğuladıq ki, azərbaycanlılar öz rəqs mədəniyyətlərinə görə daha çox Qafqaz xalqlarına yaxındırlar. Hərçənd azəri türklərinin rəqsləri regionda məskunlaşmış digər millətlərin rəqslərindən öz mündəricəsinə, stilizə dərəcəsinə, ritmo-melodik quruluşuna və mükəmməlliyinə görə seçilir. Təbii ki, burada əsas rolu coğrafi landşaftla, iqlim şəraiti ilə yanaşı xalqın xarakteri, məişəti oynamışdır. Tutalım, eskimosların, evenklərin, çukçaların rəqsləri onların yaşadığı iqlimin xarakterini özündə daşıyır. Soyuq iqlimlə yaşayıb əksər hallarda isti paltarlarda, uzunboğaz dəri çəkmələrdə gəzməyə məcbur olan insanların jest mədəniyyətində qafqazlılara xas ədaları axtarmaq bicadır. Yəni eskimosların da, qafqazlıların da rəqsinin plastik xüsusiyyətlərini müəyyənləşdirən birinci amil onların geyim tərzidir. Eyni fikri biz azərbaycanlılara da şamil edə bilərik. Lənkəran bölgəsinin rəqsləri ilə Qazax və Şirvan bölgələrinin rəqsləri, kökün eyni olmasına baxmayaraq, bir-birinə bənzəmir. Bu fərqliliyi şərtləndirən cəhətlərdən biri, əlbəttə ki, geyimdir. Azərbaycanda iki elə zona yoxdur ki, orada geyimlər bir-birini təkrarlasın, bir-birinin eyni olsun.

Bizim milli rəqslərimizi Qafqaz rəqsləri arasında xüsusiləşdirən cizgilərin ən mühümlərindən biri azərbaycanlıların unikal və təmtəraqlı toy mədəniyyətinə malik olmasıdır. Azərbaycan rəqsinin uzun əsrlərdən bəri saxlanc yeri funksiyasını qeyri-rəsmi şəkildə məhz toy icra edib. Toy mədəniyyətdə dinamik muzey statusunda fəaliyyət göstərib və elə bu statusda da milli rəqslərin yaşamasını, inkişafını təmin edib. Gəlin razılaşaq ki, Qafqazın heç bir xalqının və ya etnik qrupunun azəri türkləri qədər zəngin toy mədəniyyəti yoxdur. Azərbaycan toyu həmişə müəyyən mərhələlərdən ibarət olub və hər mərhələ nəinki öz adət-ənənələrini formalaşdırıb, hətta öz oyunlarını və rəqslərini proqramlaşdırıb. Əlbəttə, o fakt mübahisələrdən kənardır ki, toy bir qayda olaraq qadın rəqslərinin inkişafı, rəngarəngləşməsi üçün münbit şərait yaratmışdır.

Çunki qız toyu bəyin toyuna qədər müxtəlif mərhələlərdən keçirdi və bu mərhələlərin iştirakçıları həmişə qadınlar olurdu. Toy Azərbaycanda qadınların əyləncəsi, tamaşası, istirahəti funksiyasını daşıyıb. Kişilər isə cəmi bir dəfə bəy toyuna yığışırmışlar. Ola bilsin ki, elə bu da Azərbaycan hüdudlarında qadın rəqslərinin kişi rəqslərinə nisbətən daha rəngarəng olmasına gətirib çıxarıb.

*Azərbaycan milli rəqslərinin inkişafında məhz bizim toylarımız fundamental rol oynayıb onların Qafqaz rəqslərinin içərisində özgürləşməsinə xidmət göstərib. Nədən ötrü biz bu məqamı xüsusi vurğulayıb ön plana çəkirik? Belə ki, rəqsin tarixilə, xoreoqrafiya sənətinin kökləri ilə məşğul olan tədqiqatçıların böyük əksəriyyəti rəqsi birbaşa şəkildə xalqların əmək fəaliyyətilə əlaqələndirirlər. Lakin bu əgər elə olsaydı, onda bütün millətlərdən olan əkinçilərin, ovçuların, çobanların rəqsləri bir-birilə eyniyyət təşkil etməliydi. Lakin bu, heç də belə deyil. Bir vətənin müxtəlif bölgələrində yaşayan eyni bir millətin nümayəndələrinin belə rəqsləri müxtəlifdir. Onda buna səbəb nədir? Bizim fikrimizcə, rəqsin formalaşmasında çox mühüm amil həsrolunma mərasimidir. Toy rudimental səviyyədə ibtidai toplumlara xas həsrolunma mərasiminin gələnəklərini özündə saxlayır. Həsrolunma mərasiminin isə toplumun fərdindən ötrü həmişə öz təkrarolunmaz məziyyətləri olub. Bu isə gələcəkdə həsrolunma mərasiminin forma və məzmununun, quruluş və ritmlərinin dəyişməsi deməkdir. Hətta biz fikirləşirik ki, rəqs öz ilkin mənasından məhrum olmuş həsrolunma prosesinin məkan içrə qrafik görkəmidir. Hər halda həsrolunma mərasimi bizə milli rəqslərin koordinal şəkildə bir-birindən fərqlənməsinin əsas şərti kimi görünür. Və bu həsrolunma mərasiminin oyunlarının, rəqslərinin nümunəsini biz, heç şübhəsiz ki, təbiəti, heyvanları müşahidə edərək özümsəmişik. Ancaq bu o demək deyil ki, milli rəqslərin genezisi prosesi xalqın milli rəqsinin genezisi özündə həsrolunma mərasiminin ənənələrilə xalqın əmək fəaliyyəti üçün xarakterik ritmik hərəkərlərin sintezini ehtiva eləyir.*

*Əsəd RZAYEV*